**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# CİNAYƏT PROSESİNDƏ MƏHKƏMƏYƏDƏK İCRAATDA CİNAYƏT TƏQİBİ ÜZRƏ İCRAATIN VƏ CİNAYƏT İŞİNİN XİTAM OLUNMASININ ƏSASLARI: NƏZƏRİYYƏ, QANUNVERİCİLİK VƏ TƏCRÜBƏ

| | |
|---|---|
| İxtisas: | 5612.01 – Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti |
| Elm sahəsi: | Hüquq |
| İddiaçı: | **Məhəmməd Vilyam oğlu Hacıyev** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim etdiyi dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "Cinayət prosesi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: hüquq elmləri doktoru, professor
**Qəfərov Midhəd Seyidəhməd oğlu**

Rəsmi opponentlər: hüquq elmləri doktoru, professor
**Fuad Musa oğlu Cavadov**

hüquq elmləri üzrə fəlsəfə doktoru, dosent
**Allahverdi Mirzağa oğlu Mahmudov**

hüquq elmləri üzrə fəlsəfə doktoru, dosent
**Allahverdi Əhmədxan oğlu Teymurov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Milli Aviasiya Akademiyasının nəzdində fəaliyyət göstərən ED 2.45 saylı Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: hüquq elmləri doktoru, professor
_______________ **Ayxan Xankişi oğlu Rüstəmzadə**

Dissertasiya şurasının elmi katibi: hüquq elmləri üzrə fəlsəfə doktoru
_______________ **Sahil Zahir oğlu Hüseynov**

Elmi seminarın sədri: hüquq elmləri doktoru, professor
_______________ **Kamil Nazim oğlu Səlimov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Cinayət təqibi cinayətə görə məsuliyyətin labüdlüyünü təmin edən prosessual hüquq institutudur. 1961-ci il tarixli CPM-də bu institutdan imtina edilsə də, 2000-ci ildə CPM-də bu instituta həm normativ anlayış verilmiş, həm də bu instituta dair iki müstəqil fəsil nəzərdə tutulmuşdur. Bununla belə, təcrübədə bu institutun realizə edilməsinin, nəzəriyyədə isə onun ayrı-ayrı elementlərinin şərh edilməsinin bəzi məsələləri problemli olaraq qalmaqdadır.

Cinayət təqibi cinayətə görə məsuliyyətin labüdlüyünü təmin edən əsas hüquqi vasitə olmaqla, bir tərəfdən cinayət nəticəsində pozulmuş hüquqların bərpa edilməsinə zəmin yaradır, digər tərəfdən isə barəsində cinayət təqibi həyata keçirilən şəxslər üçün məcburiyyət (məsələn, tutulma), məhdudiyyət (həbs növündə qətimkan tədbirinin tətbiqi) və yaxud məhrumiyyətlərə (məsələn, azadlıqdan məhrum etmə növündə cəzanın təyini) səbəb olur. Odur ki, cinayət təqibinin həyata keçirilməsi zamanı bərpa edilən və məhdudlaşdırılan hüquqlar arasındakı balansı qorumaq üçün bu fəaliyyəti həyata keçirən subyektlərdən yüksək peşəkarlıq və onların fəaliyyətinin qanunla dəqiq tənzim edilməsi tələb olunur.

Tədqiqat mövzusunun aktuallığı, ilk növbədə, onunla müəyyən edilir ki, bu mövzu şəxsiyyətin hüquqlarının əhəmiyyətli dərəcədə məhdudlaşdırılması ilə müşayiət olunan bir prosessual fəaiyyətin xitamı edilməsi məsələlərinin təhlilinə yönəlmişdir. Bundan başqa, nəzərə alınmalıdır ki, müstəqillikdən sonra qəbul edilmiş cinayət-prosessual qanunvericilikdə cinayət təqibinin və cinayət işinin xitam verilməsi əsasları və prosedurları ilə bağlı təsbit edilmiş normaların bir qismində müəyyən qüsur, boşluq, çatışmazlıq və ziddiyyətlər mövcuddur. Bu isə, nəzərdən keçirilən mövzu kompleks və sistemli şəkildə tədqiq edilməsini, qüvvədə olan CPM-in müvafiq normalarının maddi və prosessual hüquq normalarının korrelyasiyası kontekstində təhlil edilməsini, qanunvericilikdə mövcud olan problemlərin müəyyən edilməsini və həll edilməsi istiqamətində elmi cəhətdən əsaslandırılmış, təcrübə üçün səmərəli ola biləcək həll yollarının işlənib hazırlanmasını tələb edir.

1 dekabr 2017-ci il tarixli Qanunu ilə CPM-ə edilmiş son əlavə və dəyişikliklər sırasında CPM-in 40.2-ci maddəsinin yeni redaksiyada verilməsi də yer alır. Bu isə o deməkdir ki, indiyə qədər milli hüquq ədəbiyyatında CPM-in 40.2-ci maddəsinin izahını, şərhini nəzərdə tutan, yaxud bu maddəyə istinad edilməklə, ondan arqument kimi istifadə edilməklə bildirilmiş əksər fikir və mövqelərə yenidən baxılmalı, cinayət məsuliyyətindən azad etmə institutu ilə əlaqədar cinayət təqibinə xitam verilməsi məsələlərinə yeni yanaşmalar nümayiş etdirilməlidir.

Qeyd edilən amillər cinayət prosesində məhkəməyədək icraatda cinayət təqibi üzrə icraatın və cinayət işinin xitam olunmasının əsaslarının, nəzəri və qanunvericilik müddəalarının təhlilinin və təcrübənin ümumiləşdirilməsinə həsr edilmiş tədqiqat işlərinin aktuallığını göstərir.

Azərbaycan Respublikasında müstəqillikdən sonra cinayət işinə və cinayət təqibinə xitam verilməsi problemləri yeni cinayət-prosessual qanunvericiliyin təhlili əsasında müstəqil şəkildə monoqrafik tədqiqatatın mövzusu olmamışdır. Azərbaycanda müstəqil dissertasiya tədqiqatı kimi 1975-ci ildə R.H.İsgəndərov "İbtidai istintaqda cinayət işinin xitam edilməsi" adlı dissertasiya[1] müdafiə etmişdir. Ötən illər ərzində bu institutun ümumi məsələləri prof. M.Ə. Cəfərquliyevin[2] və prof. F.M. Abbasovanın[3] cinayət-prosessual hüquqa dair dərsliklərində izah edilmişdir. Son dövrlərdə M.S.Qəfərov[4] müxtəlif elmi məqalələrində cinayət işinə və cinayət təqibinə xitam verilməsinin ayrılıqda götürülmüş müxtəlif aspektlərini konseptual cəhətdən işıqlandırmışdır.

Prof. F.Y. Səməndərov, prof. Ş.T. Səmədova, prof. H.S. Qurbanov, İ.B. Ağayev, K.O. Nəzərova, K.Ü. Bağırlı cinayət

---

[1] Искендеров, Р.Г. Прекращение уголовного дела на предварительном следствии. Автореферат диссертации ... кандидата юридических наук. – Баку, 1975, – 20 с.
[2] Cəfərquliyev, M.Ə. Azərbaycan Respublikasının cinayət prosesi / M.Ə.Cəfərquliyev, – Bakı: Qanun, – 2008. – 768 s.;
[3] Abbasova, F.M. Cinayət prosesi / Abbasova, F.M. Dərslik. Ümumi hissə. – Bakı: Zərdabi LTD MMC, – 2015. – 412 s.
[4] Qəfərov, M.S. Azərbaycan Respublikasının cinayət prosesində şəxsiyyətin hüquqlarının təmin edilməsi / M.S.Qəfərov. – Bakı: Qanun, – 2006. – 248 s

hüququnun Ümumi hissəsinə həsr edilmiş əsərlərində cinayət işinə və cinayət təqibinə xitam verilməsi problemlərinə toxunmuşlar.

Cinayət işinə və cinayət təqibinə xitam verilməsi institutu cinayət-prosessual hüquq üçün xarakterik olan bir institut olsa da, cinayət hüququ sahəsində də tədqiqat aparmış alimlərimizin bir sıra nailiyyətləri dolayısı ilə cinayət işinə və cinayət təqibinə xitam verilməsi institutunun nəzəri cəhətdən izahı, təcrübədə səmərəli tətbiqi kimi işlərə öz müsbət töhfələrini vermişdir.

Ümumiyyətlə, cinayət-prosessual hüquq ədəbiyyatında cinayət təqibinə və cinayət işinə xitam verilməsi institutunu tam olaraq əhatə edən elmi tədqiqat işlərinin sayı çox deyildir. O.V.Volınskaya, N.Y.Bukşa, S.V.İlyuxina, Y.A.Rubinşteyn və digər tədqiqatçılar tərəfindən bu problem tam həcmdə deyil, müxtəlif seçilmiş aspektlərə diqqət yetirməklə araşdırılmışdır.

Tədqiqatın nəzəri bazasını tədqiqat predmetinə aid olan məsələlər barədə nəzəri fikirlər və hüquq normalarının şərhini əks etdirən nəzəri mənbələr təşkil edir. Dissertasiya işinin yazılması zamanı prof. C.İ.Süleymanov, prof. Ə.İ.Əliyev, prof. K.N.Səlimov, prof. F.M.Cavadov və s. milli tədqiqatçıların, L.V.Qolovko, Y.S.Belkin, A.S.Barabaş, Y.V.Qerasimova, K.F.Qutsenko, M.P.Davıdov, Z.Z.Zinatullin, K.B.Kalinovski, V.A.Mixaylov, V.T.Tomin və s. xarici tədqiqatçıların əsərlərindən istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya tədqiqatının obyekti məhkəməyədək icraatda cinayət işlərinə və cinayət təqibinə xitam verilməsi institutunun inkişaf tarixi, mahiyyəti, prosessual əsaslarını tənzim edən qanunvericiliyin müddəaları ilə bağlı ictimai münasibətlərdir. Tədqiqatın predmetini isə məhkəməyədək icraatda cinayət işlərinə və cinayət təqibinə xitam verilməsi institutunun ümumi hüquqi, cinayət-prosessual, cinayət hüququ və digər hüquq elmlərinin nəzəri müddəaları, həmçinin bu institutun tətbiqi təcrübəsinin məlumnatları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya tədqiqatı məhkəməyədək icraatda cinayət işinin və cinayət təqibinin xitam edilməsini tənzim edən hüquq normalarının və hüquqi prosedurların təkmilləşdirilməsi istiqamətində elmi əsaslandırılmış təkliflərin işlənib hazırlanması məqsədilə həyata keçirilmişdir.

Bu məqsədə nail olmaq üçün tədqiqat işi qarşısında aşağıdakı vəzifələr müəyyən edilmiş və onların həlli istiqamətində tədqiqatlar aparılmışdır:

– müasir cinayət-prosessual hüquq elmində cinayət işinə və cinayət təqibinə xitam verilməsi institutunun anlayışının müəyyən edilməsi, bu hüquq institutunun sosial-hüquqi mahiyyətinin və əhəmiyyətinin araşdırılması;

– cinayət işinə və cinayət təqibinə xitam verilməsi institutunun retrospektiv analizinin həyata keçirilməsi, Azərbaycan SSR-in 1923-cü il və 1961-ci il CPM-lərinin məhkəməyədək icraatda cinayət işinə və cinayət təqibinə xitam verilməsi institutunun tənzim edilməsi ilə bağlı müddəalarının müfəssəl təhlil edilməsi;

– xarici dövlətlərin cinayət-prosessual qanunvericiliyinin cinayət işinin və cinayət təqibinin xitam edilməsi institutunun tənzim edilməsi aspektində müqayisəli-hüquqi kontekstdə araşdırılması;

– məhkəməyədək icraatda cinayət təqibinə və cinayət işinə xitam verilməsinin əsaslarının anlayışının, sisteminin, təsnifatının və əhəmiyyətinin müəyyən edilməsi;

– cinayət işinə və cinayət təqibinə xitam verilməsinin bəraətverici əsaslarının mahiyyətinin müəyyən edilməsi;

– cinayət işinə və cinayət təqibinə xitam verilməsinin bəraət verməyən əsaslarının mahiyyətinin müəyyən edilməsi, həmçinin, bu əsaslardan istisnalarla bağlı məsələlərin aydınlaşdırılması;

– cinayət işinə və cinayət təqibinə xitam verilməsinin prosessual elementlərinin təhlil edilməsi;

– cinayət işinə və cinayət təqibinə xitam verilməsi üzərində prokuror nəzarətinin və məhkəmə nəzarətinin həyata keçirilməsinin mahiyyətinin və əhəmiyyətinin müəyyən edilməsi.

**Tədqiqat metodları.** Dissertasiya tədqiqatlarında dialektik idrak metodundan və bu metodu şərtləndirən ümumelmi və xüsusi elmi metodlar kompleksindən istifadə edilmişdir. Formal məntiqi metod cinayət işinə və cinayət təqibinə xitam verilməsini tənzim edən cinayət-prosessual hüquq normalarının təhlil edilmısinə tətbiq edilmişdir. Tarixi metod vasitəsilə cinayət prosesində cinayət işinə və cinayət təqibinə xitam verilməsi institutunun genezisinin, onun inkişaf mərhələlərinin öyrənilməsinə tətbiq edilmişdir. Müqayisəli hüquq

metodu vasitəsilə müxtəlif dövlətlərin cinayət-prosessual qanunvericiliyində cinayət işinə və cinayət təqibinə xitam verilməsi institutunun tənzim edilməsinin xüsusiyyətləri öyrənilmiş, milli CPM-nin müvafiq müddəaları ilə müqaysə edilmişdir. Statistik təhlil metodu cinayət işinə və cinayət təqibinə xitam verilməsi ilə bağlı təcrübənin və statistikanın təhlil edilməsinə və ümumiləşdirilməsinə tətbiq edilmişdir. Hüquqi modelləşdirmə metodu cinayət işinə və cinayət təqibinə xitam verilməsi institutunun daha etibarlı tətbiq edilməsinin təmin edilməsi məqsədilə müvafiq qanunvericilik təkliflərinin və tövsiyələrinin irəli sürülməsinə tətbiq edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. CPM-in 45.5-ci maddəsinə uyğun olaraq cinayət təqibi üzrə icraata xitam verilməsi hallarına "cinayət təqibinin həyata keçirilməsinə mane olan hallar" kimi müstəqil əlamətlərin daxil edilməsi qəbul edilməməlidir. CPM-in 46.5-ci maddəsindəki "cinayət təqibini istisna edən hal" və "cinayət təqibinin həyata keçirilməsinə mane olan hal" kateqoriyalarından eyni mənada istifadə edilmişdir. Cinayət təqibinə mane olan hallar cinayət təqibini istisna etmir, bu halların aradan qaldırılması və işin normal icraatının davam etdirilməsi üçün tədbirlərin görülməsini şərtləndirir. Odur ki, CPM-in 45.5-ci maddəsinin aşağıdakı təkmilləşdirilmiş redaksiyası təklif edilir: *"Cinayət təqibinin icraatını istisna edən yaxud təqibini istisna edən hallar aşkarlandıqda cinayət prosesini həyata keçirən orqanın qərarı ilə xitam verilə bilər"*.

2. CPM-in 40.2-ci maddəsinin son redaksiyası cinayət hüquqi və cinayət prosesual qanunvericiliyin hümanistləşdirilməsi siyasətinin davamı olaraq cinayət təqibinin həyata keçirilməməsinə imkan verən halların dairəsini genişləndirdi. CM-nin 73-1 maddəsində mülkiyyət əleyhinə olan cinayətlərə görə cinayət məsuliyyətindən azad edilmə şərti kimi dövlət büdcəsinə edilməli olan ödənişin miqdarının 25 faizdan 15 faizə, 73.1.3-cü maddə üzrə 50 faizdən 40 faizə endirilməsi pozulmuş əmlak hüquqlarının bərpası üçün stimullaşdırıcı amil ola bilər. Dövlət büdcəsinə ödənişin miqdarının müəyyən şərtlər daxilində qanunda göstərilənlərdən məbləğdən azaldılması imkanının məhkəmənin səlahiyyətinə aid edilməsi ilə bağlı müddəanın qanunvericiliyə daxil edilməsi məqsədəuyğundur.

3. Fikrimizcə, cinayət məsuliyyətinə cəlb etmə müddətinin keçməsi ilə əlaqədar təhqiqatçı, müstəntiq, prokuror tərəfindən bu əsas üzrə cinayət məsuliyyətindən azad etmənin imperativ qaydasından imtina edilməlidir. Bununla əlaqədar CM-nin 75.1-ci maddəsinin yeni redaksiyada verilməsini təklif edirik: 75.1. "Cinayət törətdiyi gündən aşağıdakı müddətlər kecdikdə şəxs cinayət məsuliyyətindən azad edilə bilər". Bu əsas bəraətverməyən əsasdır, bunun tətbiqi üçün qanuna görə (CPM-nin 41.2-ci maddəsi) müdafiə tərəfinin razılığı tələb olunur. Lakin bu əsasın tətbiqi zamanı cinayətdən zərər çəkən tərəfin mənafeyinin nəzərə alınmaması qanunda boşluq hesab edilməlidir. Tərəflərin bərabərliyi və proses iştirakçılarının hüquqları və qanuni mənafeyinin təmin edilməsi baxımından belə bir dəyişikliyin qanuna əlavə edilməsi məqsədəuyğundur.

4. Cinayət işi üzrə icraata xitam verilməsi haqqında qərarın ümumi prosessual formasının müəyyən edilməsi baxımından CPM-in 280.2-ci maddəsinin müddəaları qənaətbəxş olsalar da, bu qərarın bəzi digər zəruri rekvizitlərini də fərqləndirmək lazımdır:

4.1. cinayət işi üzrə icraata xitam verilməsi haqqında qərar cinayət təqibinin həyata keçirilməməsinə imkan verən hala istinad edərək qəbul edilirsə, prokurorun imzası ilə təsdiq edilməli olan və imzalanma tarixini nəzərdə tutan "RAZIYAM" dərkənarı da cinayət işi üzrə icraata xitam verilməsi haqqında qərarın məcburi rekviziti sayılmalıdır və bu barədə Azərbaycan Respublikası Baş prokurorluğunun Təşkili Qaydalarında göstərilməlidir;

4.2. bu qərarda təkcə cinayət işinin nə vaxt və kim tərəfindən başlanmış olması haqqında məlumatlar deyil, cinayət işinin CM-in hansı maddəsi ilə başlanmış olması, ibtidai istintaq zamanı əməlin tövsifinin dəyişib-dəyişmədiyi, əgər dəyişmişdirsə, hansı əsaslarla və CM-in hansı maddəsinə yenidən tövsif olunması kimi məsələlər də mütləq göstərilməlidir, çünki, bir sıra hallarda cinayət təqibinə xitam verilməsi üçün cinayət işinin məhz CM-in hansı maddəsi ilə başlanmış və icraatı aparılmış olduğu prinsipial əhəmiyyət kəsb edir;

4.3. bu qərarda göstərilməli olan hal kimi yalnız "cinayət işi üzrə icraata xitam verilməsinin məcburiliyini şərtləndirən hallar"ın nəzərdə tutulması da doğru deyildir, çünki cinayət işi üzrə icraata xitam verilməsi yalnız CPM-in 39-cu maddəsində təsbit edilmiş

hallarda məcburi hesab edilə bilər. CPM-in 40-cı maddəsində müəyyən edilmiş hallarda cinayət işi üzrə icraata xitam verilməsi məcburi yox, diskresion xarakter kəsb edir. Bu səbəbdən, CPM-in 40-cı maddəsinə "Cinayət işi üzrə icraata xitam verilərkən qəbul edilən qərarda cinayət işi üzrə icraata xitam verilməsinin məqsədəuyğunluğu əsaslandırılmalıdır" məzmunlu 40.6-cı maddənin əlavə edilməsini təklif edirik;

4.4. cinayət işi üzrə icraata bəraətverici əsaslarla xitam verildiyi hallarda cinayət işi üzrə icraata xitam verilməsi haqqında qərarda "vurulmuş ziyanın ödənilməsi" hüququnun tanınması barədə göstəriş də yer almalıdır. İş üzrə icraata bəraətverici əsaslar olmadan xitam verildiyi hallarda barəsində cinayət işinə xitam verilən şəxsin bu qərarla öz razılığını ifadə etmək üçün qərarın sonunda müvafiq qrafanın nəzərdə tutulması məqsədəuyğun hesab edilir.

5. CPM-də cinayət işinə (cinayət təqibinə) xitam verilməsi haqqında qərarın surətinin müstəntiq tərəfindən verilməli olduğu şəxslərin dairəsində "zərər çəkmiş şəxsin hüquqi varisi" göstərilmir. O, zərər çəkmiş şəxsin ifadə vermək hüququndan və şəxsiyyətin ayrılmaz hüquqları istisna olmaqla, digər hüquqlardan istifadə edir və digər vəzifələr daşıyır. Ümumi hüquq prinsiplərinə əsasən "cinayət işi üzrə icraata xitam verilməsi barədə" qərardan zərər çəkmiş şəxsin şikayət vermək hüququ da onun hüquqi varisinə keçir və bu qərarın qəbul edilməsindən xəbərdar olmaq hüququ tanınmalı və təmin edilməlidir. Hesab edirik ki, CPM-in 281.1-ci maddəsində "şəxs qismində tanınanadək ölmüş şəxsin yaxın qohumlarına" sözlərindən sonra "zərər çəkmiş şəxsin hüquqi varisinə" sözlərinin əlavə edilməsi təklif olunur.

6. Prokurorun cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirmək vəzifəsinin normativ ifadəsi bir qədər natamamdır, çünki prokuror təkcə cinayət işi üzrə deyil, o cümlədən, cinayət təqibi ilə bağlı digər materiallar üzrə də, daha dəqiq desək, tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə iş və məhkəməyədək sadələşdirilmiş icraat materialları üzrə də ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirir. Bu materiallar cinayət işi anlayışı ilə əhatə edilmir. Belə ki, CPM-in 7.0.7-ci maddəsində məhkəməyədək sadələşdirilmiş icraat materialları, 471-

ci maddəsində isə tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə iş cinayət işindən qəti şəkildə fərqləndirilmişdir. Odur ki, CPM-in 84.2.2-ci maddəsində *"cinayət işi"* sözlərindən sonra vergül işarəsi daha sonra *"tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə iş və məhkəməyədək sadələşdirilmiş icraat materialları"* sözləri əlavə edilməlidir.

7. Cinayət təqibidən imtina etmək ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun cinayət işi üzrə aparılan təhqiqata və ibtidai istintaqa nəzarət edərkən həyata keçirdiyi səlahiyyət yox, dövlət ittihamçısının səlahiyyətidir və bu, yalnız məhkəmə baxışı gedişində mümkündür. İbtidai araşdırma mərhələsində isə cinayət təqibinə xitam verilməsindən və onun başlanmasının rədd edilməsindən söhbət gedə bilər. CPM-in 84.5.13-cü maddəsində cinayət təqibindən imtina etmək" ifadəsi yerində işlənməmişdir və aşağıdakı redaksiyada verilməlidir: "həmin Məcəllənin 39, 40-cı maddələrində nəzərdə tutulmuş hallarda şəxsə qarşı cinayət təqibinə başlamamaq, başlanmış cinayət təqibinə isə xitam vermək".

8. Prosessual institut kimi cinayət işinə və cinayət təqibinə xitam verilməsinin əsaslarını, prosessual qaydasını, cinayət işinə və cinayət təqibinə xitam verilməsinin rəsmiləşdirilməsini, cinayət işinə və cinayət təqibinə xitam verilməsinin forma və məzmununu, cinayət işinə və cinayət təqibinə xitam verilməsinin prosessual təminatlarının əks olunması, istintaq, təhqiqat, prokurorluq və məhkəmə orqanlarının cinayət işinə və cinayət təqibinə xitam verilməsi üzrə yaranan münasibətləri tənzimləyən müəyyən qrup hüquq normalarının məcmusundan ibarətdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya tədqiqatın elmi yeniliyi, ilk növbədə, Azərbaycan Respublikasında məhkəməyədək icraatda cinayət təqibi üzrə icraatın və cinayət işinin xitam olunması mövzusunda müstəqil tədqiqat işinin aparılmaması ilə izah edilir. Tədqiqat zamanı əldə edilmiş nəticələr eyni problemlərə toxunmuş müəlliflərin əldə etdiyi nəticələri təkrarlamır, müəllif tərəfindən işlənib hazırlanmış təklif və tövsiyələr hüqüq yaradıcılığı və hüquq tətbiqi təcrübəsinin təkmilləşdirilməsinə yönəlmişdir. Tədqiqatın elmi yeniliyi müdafiəyə təqdim edilmiş əsas müddəalarda da özünü göstərir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Tədqiqat işi bütövlükdə məzmununa və ayrı-ayrı məsələlər üzrə əldə edilmiş nəticələrinə görə nəzəri və təcrübi əhəmiyyət kəsb edir. Dissertasiyada cinayət-prosessual qanunvericiliyin bəzi müddəalarının şərhi verilir, iş üzrə nəzəri ümumiləşdirmələr aparılır, müəllif müzakirəyə çıxarılan məsələlərin əksəriyyəti ilə bağlı müstəqil mövqeyini formalaşdırmışdır ki, bu tədqiqatın nəzəri əhəmiyyətini göstərir. İşin praktiki əhəmiyyəti onun nəticələrinin və irəli sürülən təkliflərin təcrübədə tətbiqi imkanları ilə izah olunur. Dissertasiyadan ali məktəblərin hüquq fakültələrində həm bakalavr, həm də magistratura pillələrində müxtəlif fənlərin tədrisində tədris vəsaiti kimi istifadə oluna bilər. Əsaslandırılmaqla irəli sürülmüş qanunvericilik təkliflərindən cinayət-prosessual qanunvericiliyin təkmilləşdirilməsində geniş istifadə oluna bilər. Bundan əlavə, dissertasiyanın nəticələrindən hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi üçün tövsiyələr kimi faydalı ola bilər.

**Dissertasiya işinin aprobasiyası və tətbiqi.** Dissertasiyanın məzmununu təşkil edən əsas müddəalar, nəticə və təkliflər müəllif tərəfindən elmi məqalələr formasında dərc edilən əsərlərdə və elmi-praktiki konfrans materiallarında öz əksini tapmış, elmi və praktiki işçilərin nəzərinə çatdırılmışdır. Bundan başqa, işin nəticələrindən müəllifin müstəntiqlik fəaliyyətində istifadə olunmuşdur. Mövzu üzrə respublikada və xarici elmi nəşrlərdə 11 elmi məqalə və konfrans materiallarında dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət prosesi kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi Giriş – 31434 işarə, I Fəsil – 72666 işarə, II Fəsil – 100213 işarə, III Fəsil – 55863 işarə, Nəticə – 21056 işarə və istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla cəmi – 288000 işarədən, həmçinin əlavələrdən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, tədqiqatın

aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi göstərilmişdir.

**İşin I Fəsli "Cinayət mühakimə icraatında cinayət işinə və cinayət təqibinə xitam verilməsinin ümumi xarakteristikası"** adlanır. I Fəslin **"Cinayət işinə və cinayət təqibinə xitam verilməsinin anlayışı, sosial-hüquqi mahiyyəti və əhəmiyyəti"** adlı ilk paraqrafında cinayət təqibinə xitam verilməsinin mahiyyətinin müəyyən edilməsi üçün cinayət təqibi anlayışının təhlili verilmişdir. Cinayət təqibi institutu vasitəsilə cinayətlərin aşkar edilməsi, qarşısının alınması, üstünün açılması, cinayət törətmiş şəxslərin ifşa edilməsi və onların cinayət məsuliyyətinə cəlb edilməsinin labüdlüyü təmin edilir. Cinayət təqibini həyata keçirmək vəzifəsinin təhqiqat və ibtidai istintaq orqanlarına həvalə edilməsi dövlət fəaliyyətinin mühüm sahələrindən biri olan cinayət təqibinə ictimai xarakter verilməsinə yönəlmişdir. Əsassız cinayət təqibinə məruz qalmış şəxsin barəsində cinayət təqibinə xitam verilməsi də ictimai xarakter kəsb edərək, "cəmiyyətdə insan və vətəndaşın hüquq və azadlıqlarına hörmətin bərqərar olmasına" (CPM-in 1.3-cü maddəsi) imkan yaradır, insanlarda təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının fəaliyyətinin qanun çərçivəsində həyata keçirilməsinə inam formalaşdırır.

Cinayət təqibinə xitam verilməsi dedikdə, konkret təqsirləndirilən və ya şübhəli şəxsin cinayət əməlini törətməkdə ifşa edilməsinə və ona cəza təyin edilməsinin təmin olunmasına yönəldilmiş prosessual fəaliyyətin başa çatdırılması nəzərdə tutulur.

I Fəslin **"Cinayət-prosessual qanunvericilikdə cinayət işinə və cinayət təqibinə xitam verilməsi institutunun inkişaf tarixi"** adlanan ikinci paraqrafında xitam verilmə institutunun evolyusiyası taixi izlənilir. Qeyd olunur ki, Azərbaycanın ilk 1923-cü il CPM-ində "cinayət təqibi" və "cinayət işi" kateqoriyalarına leqal təriflər verilmirdi. 1923-cü il CPM-də həm cinayət təqibinin, həm də cinayət işinin xitam edilməsi, dövrün terminologiyası ilə desək, "xətm edilməsi" haqqında normalar nəzərdə tutulurdu. 1961-ci il CPM-də də "cinayət təqibi" anlayışından istifadə edilmirdi və bu səbəbdən, "cinayət təqibinə xitam verilməsi" kimi bir anlayış da yox idi, Məcəllədə yalnız cinayət işinin xitam edilməsindən bəhs edilirdi.

Cinayət işinin xitam edilməsi haqqında müstəntiqin qərarından zərər çəkmiş şəxs, müqəssir, habelə sair maraqlı şəxslər, idarələr, müəssisələr və təşkilatlar tərəfindən işin xitam edilməsi barəsində xəbər alındığı vaxtdan etibarən yeddi gün müddətində prokurora şikayət verilə bilərdi. Müstəntiqin işin xitam edilməsi haqqında qərarı, bunun üçün əsaslar olduqda, prokuror tərəfindən həm öz təşəbbüsü ilə, həm də maraqlı şəxslərin, idarələrin, müəssisələrin və ya təşkilatların şikayəti əsasında ləğv oluna bilərdi. İşin ümumi əfv və ya müddətin keçməsi nəticəsində xitam edilməsinə müqəssirin etiraz etmək hüququ tanınırdı. Belə etirazlar olduqda, ibtidai istintaq ümumi əsaslar üzrə sona çatdırılmalı idi. Müqəssirin ölməsinə görə cinayət işi xitam edildiyi halda, ölmüş müqəssirin yaxın qohumları və ya onun üzv olmuş olduğu ictimai təşkilatlar ölmüş müqəssiri təmizə çıxarmaq məqsədilə ibtidai istintaqın sona çatdırılması barədə xahiş edə bilərdilər. 1961-ci il CPM müəyyən əsaslara görə cinayət işinə və cinayət təqibinə xitam verilməsi institutunu inkişaf etdirdi, onun tətbiqi dairəsini genişləndirdi, hətta müəyyən mənada liberallaşdırma da hesab edilə bilərdi.

I Fəslin **"Bəzi xarici dövlətlərin qanunvericiliyində cinayət işinə və cinayət təqibinə xitam verilməsi institutu"** adlanan üçüncü paraqrafında ABŞ, Almaniya, Fransa, Rusiya Federasiyası kimi dövlətlərdə cinayət işinə və cinayət təqibinə xitam verilməsi institutunun qanunvericilik əsasları və tətbiqi təcrübəsi müqayisəli təhlil olunur. ABŞ-da cinayət işinin başlanılması qismində müstəqil hüquq institutu mövcud olmadığı üçün, cinayət işinin xitam edilməsi qismində də müstəqil hüquq institutuna sistem daxilində ehtiyac duyulmur. Bu həm də o deməkdir ki, ABŞ cinayət prosesində cinayət işinə xitam verilməsi haqqında müstəqil prosessual qərarın qəbulundan da söhbət gedə bilməz. Bununla belə, ABŞ-da cinayətin və ya cinayət əlamətlərini əks etdirən hadisənin qeydiyyata alınmasının hüquqi əhəmiyyəti ondadır ki, qeydiyyatdan sonra həmin cinayət xüsusi prosessual status alır. İngilis dilində *reported crime* adlanan bu kateqoriyadan olan əməllər üzrə polis təhqiqatı başlanılır və məhz bu araşdırmanın nəticəsindən asılı olaraq məhkəməyədək icraatın xitam edilməsi və ya cinayət təqibinin başlanmalı olması barədə qərar qəbul edilir. Başqa sözlə, ABŞ cinayət prosesində

məhkəməyədək icraatın xitam edilməsi institutu mövcuddur və bu institut, faktiki olaraq, işin cinayət təqibinin həyata keçirilməsi üçün məhkəməyə göndərilməsi haqqında qərara alternativ kimi çıxış edir.

Həm ABŞ-ın, həm də Avropa dövlətlərinin cinayət prosesində məhkəməyədək icraatda işin xitamına post-sovet dövlətlərinin qanunvericiliyində yer verildiyi qədər geniş və detallı yer verilmir. Bu həmin dövlətlərdə məhkəməyədək icraatın məhkəmə icraatına münasibətdə müəyyən anlamda "subsidiar" xarakteri ilə izah edilə bilər.

Fransada ibtidai istintaq məhkəmə orqanları tərəfindən həyata keçirildiyi üçün cinayət təqibinə ibtidai istintaqda xitam verilməsi səlahiyyətləri də istintaq hakiminə məxsus olur və bir qayda olaraq, cinayət təqibinə ibtidai istintaq zamanı xitam verilməsi cinayət məsuliyyətindən azad etmə ilə bağlı olur.

Azərbaycan Respublikasının cinayət prosesində məhkəməyədək icraatda cinayət işinə və cinayət təqibinə xitam verilməsi institutunun ən yaxın ekvivalentlərinə məhz post-sovet dövlətlərinin, cinayət prosesində rast gəlmək mümkündür.

Dissertasiyanın II Fəsli **"Məhkəməyədək icraatda cinayət təqibinə və cinayət işinə xitam verilməsi əsasları və onların təsnifatı"** adlanır. II Fəslin **"Məhkəməyədək icraatda cinayət təqibinə və cinayət işinə xitam verilməsi əsaslarının anlayışı, sistemi və təsnifatı"** adlanan birinci paraqrafında qeyd edilir ki, başlanmış cinayət təqibinin (cinayət işi üzrə icraatın) davam etdirilməsinin yolverilməz olmasına, yaxud cinayət mühakimə icraatının vəzifələrinə nail olmaq baxımından cinayət təqibinin (cinayət işi üzrə icraatın) davam etdirilməməsinin daha məqsədəuyğun olmasına dəlalət edən halların mövcudluğu cinayət təqibinə və cinayət işinə xitam verilməsi üçün əsasıdır. Cinayət təqibinə və cinayət işinə xitam verilməsi üçün əsasın həm hüquqi, həm də faktiki aspektləri mövcud olmalıdır.

Cinayət təqibinə və cinayət işinə xitam verilməsi üçün əsas qismində çıxış edə bilən hallar iki yerə bölünə bilər – cinayət təqibini istisna edən hallar və cinayət təqibinin həyata keçirilməməsinə imkan verən hallar. Bu təsnifatın funksional təyinatı ondan ibarətdir ki, o, xitam aktı (müvafiq qərar) qəbul edilərkən istinad edilmiş halın bu iki kateqoriyadan hansına aid olmasından asılı olaraq, xitam aktının icraat

aparan səlahiyyətli orqan üçün məcburi (imperativ), yaxud diskresion (dizpozitiv) xarakter kəsb etməsini müəyyən edir. Bu yanaşmadan istisna kimi, CPM-in 39.1.3-cü və CM-in 75.4-cü maddələrinin qarşılıqlı əlaqəsini göstərmək olar, çünki CPM-in 39.1.3-cü maddəsinə görə cinayət məsuliyyətinə cəlb etmə müddətləri keçdikdə cinayət təqibinin həyata keçirilməsi istisna olunur, lakin CM-in 75.4-cü maddəsinə görə, ömürlük azadlıqdan məhrum etmə növündə cəza nəzərdə tutulan cinayəti törətmiş şəxs barəsində müddətin tətbiq olunması məsələsi məhkəmə tərəfindən həll edilir.

"Cinayət təqibinə mane olan hallar" cinayət məsuliyyətinin labüdlük prinsipinin realizasiyasına mane olan, əngəl olan, qarşısını alan, bir işin icra olunmamasına səbəb olan hallar kimi qəbul edilməməlidir. Bu mənada qanunda "ibtidai istintaq başa çatdırılmalı", "cinayət təqibinə xitam verilməli" və s. xarakterli müddəaların formulə edilməsi ilə razılaşmaq olmaz. Cinayət təqibinə mane olan hallar faktiki olaraq cinayət təqibinə mane olmur və olmamalıdır. Bu halların mövcudluğu onların aradan qaldırılması üçün tədbirlərin görülməsini və işin normal fəaliyyətinin davam etdirilməsini zəruri edir. Ona görə də qanunda "cinayət təqibini istisna edən hallar" və "cinayət təqibinin həyata keçirilməsinə mane olan hallar" kateqoriyalarının müəyyən edilməsinin nə elmi, nə də təcrübi əsası yoxdur. Ona görə də CPM-in 45.5-ci maddəsi yeni redaksiyada verilməlidir".

II Fəslin **"Cinayət təqibinə (cinayət işinə) xitam verilməsinin bəraətverici əsasları"** adlanan ikinci paraqrafı bəraətverici əsasların nəzəri və praktiki problemləri tədqiq olunur. Təqsirsiz şəxslərə bəraət vermək və cinayət törətməkdə ittiham olunan şəxslərin təqsirini müəyyən edərək onları cəzalandırmaq məqsədi ilə ədalət mühakiməsini həyata keçirmək vəzifəsi ilə eyni əhəmiyyətə malikdir. Şübhəli və ya təqsirləndirilən şəxsi ifşa edən hallarla yanaşı, həm də ona bəraət verən halların nəzərə alınması, eləcə də, şübhəli və ya təqsirləndirilən şəxsin təqsirsizliyi, habelə ona bəraət verən hallar üzrə sübutların olması barədə özü, yaxud müdafiəçisi tərəfindən irəli sürülən ərizə və vəsatətlərə baxılmasının vacibliyi ilə bağlı müddəalar cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi prinsipinin ayrılmaz tərkib hissəsi kimi çıxış edir.

Qanunverici bəraət əsaslarında cinayət təqibinə xitam verilməsi nəticələrini bəraətverici hökmün nəticələri ilə bərabərləşdirir və məntiqi olaraq da düzgün hesab edilməlidir, şəxsə qarşı irəli sürülən ittiham sübut olunmadığı hallarda bəraət almaq təqsirləndirilən şəxsin əsas prosessual hüquqlarından biridir. Cinayət hadisəsinin müəyyən edilmədiyi hallarda cinayət təqibinin xitam edilməsi formal məntiqdən irəli gələn nəticədir. Cinayət hadisəsinin mövcud olmadığı hallarda cinayət təqibi başlamamaq, başlanmış cinayət təqibinə isə xitam vermək istintaq və təhqiqat orqanlarının vəzifəsi kimi qiymətləndirilməlidir.

Hadisə zərərçəkmiş şəxsin özünün fəaliyyəti nəticəsində baş vermiş olsa da, bu hal cinayət hadisəsinin mövcud olmaması kimi qiymətləndirilə bilməz. Zərər çəkmiş şəxsin əməllərində başqa cinayətin əlamətləri mövcud olmadıqda, hadisənin zərərçəkmiş şəxsin özünün fəaliyyəti nəticəsində baş verməsi halları nəzərə alınmalıdır.

II Fəslin **"Cinayət təqibinə (cinayət işinə) xitam verilməsinin bəraət verməyən əsasları və onların tətbiqi zamanı prosessual təminatlar problemi"** adlanan üçüncü paraqrafında qeyd edilir ki, 39.3-cü maddəsi cinayət təqibinin (cinayət işinin) xitam edilməsinin bəraətverici əsaslarının dairəsini müəyyən etdiyi üçün, qüvvədə olan cinayət-prosessual qanunvericiliyin hüquqi mövqeyinə (*de lege lata*) və hüquq normalarının şərh edilməsinin formal məntiq qaydalarına əsaslanan texniki üsuluna görə, həmin halların dairəsi ilə əhatə olunmayan bütün digər əsaslar cinayət təqibinin (cinayət işinin) xitam edilməsinin bəraət verməyən (qeyri-bəraətverici, ittihamedici və s.) əsasları hesab edilməlidir.

Qanunvericilikdə cinayət təqibinə xitam verilməsi işin müəyyən halların, məsələn, ölmüş şəxsə bəraət verilməsini tələb edən halların müəyyən edilməsini nəzərdə tutur. Belə hallarda hərtərəfli, tam və obyektiv tədqiqat aparılmalıdır. Ölmüş şəxsin tam və ya qismən bəraət alması üçün, ölmüş şəxsin cinayət qanuna əsasən əməli törətdiyi müəyyən edilmədikdə, cinayət təqibinin icraata bəraətverici əsaslarla xitam verilməlidir. Ölən şəxsin öz əməlini törətdiyini sübut etmək üçün kifayət qədər əsaslar olduqda, ona qarşı qaldırılmış cinayət təqibinə CPM-in 39.1.5-ci maddəsi ilə xitam verilə bilər.

Zərər çəkmiş şəxsin şikayətinin olmaması dedikdə, həm cinayət nəticəsində fiziki, mənəvi və ya maddi zərər çəkmiş və prosessual qaydada zərər çəkmiş şəxs qismində tanınmış şəxsin, həm də cinayətdən ziyan gördüyü üçün zərər çəkmiş şəxs kimi müəyyən edilsə də, lakin prosessual qaydada hələ tanınmamış şəxsin şikayətinin olmaması başa düşülə bilər.

Qanunvericilikdə "cinayət təqibinin başlanmasına prokurorun təşəbbüsü olmadığı halların" sistemi nəzərdə tutulmamışdır, lakin "ictimai-xüsusi ittiham qaydasında cinayət təqibinin zərər çəkmiş şəxsin şikayəti olmadan prokuror tərəfindən başlanıla bildiyi müstəsna hallar" təsbit edilmişdir. Deməli, ikinci kateqoriyalı hallar mövcud olmadıqda və cinayət təqibi ictimai-xüsusi ittiham qaydasında həyata keçirildikdə, zərər çəkmiş şəxsin şikayətinin olmaması əsası ilə cinayət təqibinə (cinayət işinə) xitam verilə bilər.

Dissertasiyanın III Fəsli **"Məhkəməyədək icraatda cinayət təqibinə və cinayət işinə xitam verilməsinin prosessual qaydası və onun qanuniliyini təmin edən vasitələr"** adlanır. III Fəslin **"Cinayət işinə və cinayət təqibinə xitam verilməsinin prosessual qaydası və onun optimallaşdırılması"** adlanan birinci paraqrafında xitam verilmənin prosessual əsasları təhlil edilir və onun səmərəliliyinin yüksəldilməsi məsələləri əhatə olunur. Cinayət təqibinə xitam verilməsinin ümumi qaydasını nəzərdə tutan Azərbaycan Respublikası CPM-in 41-ci maddəsinin sistemli təhlili belə nəticə çıxarmağa əsas verir ki, əgər təhqiqatçı və ya müstəntiq cinayət təqibinə (cinayət işinə) cinayət təqibini istisna edən (imperativ) əsaslara, yəni CPM-in 39-cu maddəsində təsbit edilmiş hər hansı hala istinad etməklə xitam verərlərsə, onlar özlərinin bu barədə qəbul etdikləri qərarlarını ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata prokurorla əvvəlcədən razılaşdırmağa borclu deyildirlər. Fikrimizcə, CPM-in 86.4.11-ci maddəsində təsbit edilmiş "cinayət işinin icraatına xitam verilməsi barədə qərar qəbul etmək və təsdiq olunması üçün prokurora təqdim etmək" hüququ məhz bu hallara aiddir. Belə hallarda, təhqiqatçı və ya müstəntiq artıq qəbul etmiş olduqları qərarın surətini həmin qərarın çıxarıldığı vaxtdan iyirmi dörd saatdan gec olmayaraq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərmək vəzifəsi daşıyırlar. Lakin əgər təhqiqatçı və ya müstəntiq cinayət

təqibinə (cinayət işinə) cinayət təqibinin həyata keçirilməməsinə imkan verən (dispozitiv) əsaslara, yəni CPM-in 40-cı maddəsində təsbit edilmiş hər hansı hala istinad etməklə xitam verərlərsə, onlar özlərinin bu barədə qəbul etməyə hazırlaşdıqları qərarlarını ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata prokurorla əvvəlcədən razılaşdırmağa borcludurlar.

Cinayət işi üzrə icraata xitam verilməsi haqqında qərarda təkcə cinayət işinin nə vaxt və kim tərəfindən başlanmış olması haqqında məlumatlar deyil, cinayət işinin CM-in hansı maddəsi ilə başlanmış olması, ibtidai istintaq zamanı əməlin tövsifinin dəyişib-dəyişmədiyi, əgər dəyişmişdirsə, hansı əsaslarla və CM-in hansı maddəsinə yenidən tövsif olunduğu kimi məsələlər də mütləq göstərilməlidir. Çünki, bir sıra hallarda, məsələn, cinayət işi üzrə icraata CPM-in 39.1.8-ci maddəsində nəzərdə tutulmuş hala istinad edərək xitam verildiyində və s. bu kimi hallarda cinayət işinin məhz CM-in hansı maddəsi ilə başlanmış və icraatı aparılmış olduğu prinsipial əhəmiyyət kəsb edir.

Həmçinin, CPM-in 280.2.6-cı maddəsində cinayət işi üzrə icraata xitam verilməsi haqqında qərarda göstərilməli olan hal kimi yalnız "cinayət işi üzrə icraata xitam verilməsinin məcburiliyini şərtləndirən hallar"ın nəzərdə tutulmasını da doğru hesab etmirik, çünki cinayət işi üzrə icraata xitam verilməsi yalnız CPM-in 39-cu maddəsində təsbit edilmiş hallarda məcburi hesab edilə bilər, CPM-in 40-cı maddəsində müəyyən edilmiş hallarda cinayət işi üzrə icraata xitam verilməsi məcburi yox, diskresion xarakter kəsb edir. Bu səbəbdən, CPM-in 40-cı maddəsində müəyyən edilmiş hallarda cinayət işi üzrə icraata xitam verilərkən qəbul edilən qərarda "cinayət işi üzrə icraata xitam verilməsinin məqsədəuyğunluğunu göstərən hallar" əsaslandırılmalıdır.

III Fəslin **"Cinayət işinə və cinayət təqibinə xitam verilməsi üzərində prokuror nəzarəti"** adlanan ikinci paraqrafında xitam verilmə üzərində prokuror nəzarətinin həyata keçirilməsinin prosessual əsaslarının və nəticələrinin öyrənilməsinə həsr edilmişdir. "Prokurorluq haqqında" Qanununun 4-cü maddəsində prokurorluğun fəaliyyətinin istiqamətləri sırasında nəzərdə tutulmuşdur ki, prokurorluq ibtidai istintaqa prosessual rəhbərlik edir və qanunlara

riayət edilməsini təmin edir; təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarət edir. Cinayət təqibinin həyata keçirilməsi – onun başlanması, müvafiq əsaslar mövcud olduqda onun dayandırılması, yaxud xitam edilməsi və s. zamanı prokuror nəzarəti cinayət-prosessual qanunvericiliyə yalnız zahirən, yəni formal şəkildə riayət edilməsinə nəzarətlə məhdudlaşmamalıdır, prokuror qanunun məzmununa uyğun şəkildə həyata keçirilməsi üçün tədbirlər görməlidir. Prokuror nəzarəti özündə qanun pozuntularının zamanında və tam şəkildə aşkar edilməsi, aradan qaldırılması və yeni qanun pozuntularının qarşısının alınması barədə əsas fəaliyyət istiqamətlərini ehtiva edir.

Cinayət işinə və cinayət təqibinə xitam verilməsi məsələsinin həlli ilə bağlı prokuror nəzarətinin həyata keçirilməsi zamanı Baş prokurorun "Cinayət təqibi zamanı "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun prokurorluq orqanlarında nəzərə alınması haqqında" 1 fevral 2006-cı il tarixli, 09/84 №-li Əmrində nəzərdə tutulan gösrtərişlər nəzərə alınmalıdır.

III Fəslin "**Cinayət işinə və cinayət təqibinə xitam verilməsi üzərində məhkəmə nəzarəti**" adlanan üçüncü paraqrafı xitam verilmə üzrəində məhkəmə nəzarəti ilə bağlı prosessual məsələlərin araşdırılmasına həsr edilmişdir. Belə ki, məhkəmə nəzarəti funksiyası məhkəmənin əsas funksiyasından ayrılıqda yerinə yetirilən cinayət-prosessual funksiyalardan biridir.

CPM-in 449.3.5-ci maddəsinə əsasən, təqsirləndirilən (şübhəli) şəxs və onun müdafiəçisi, zərər çəkmiş şəxs və onun qanuni nümayəndəsi, habelə qərarın qəbul edilməsi nəticəsində hüquq və azadlıqları pozulan digər şəxslər cinayət işi üzrə icraata xitam verilməsi ilə bağlı cinayət prosesini həyata keçirən orqanın prosessual qərarından məhkəməyə şikayət vermək hüququna malikdirlər.

Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində "məhkəmə nəzarəti" və "məhkəmə sanksiyası" kateqoriyaları konseptual olaraq bir institutda (məhkəmə araşdırmasının xüsusi növü və ya prosessual funksiyası) birləşdirilsə də, bu nəzarət ibtidai araşdırmanın mərhələlərində qəbul edilmiş, vətəndaşların

hüquqlarını və qanuni mənafelərini ədalətsiz məhdudlaşdıran prosessual qərarlara baxmaq səlahiyyətinin verilməsini nəzərdə tutur. "Məhkəmə sanksiyası" institutu şəxsin və vətəndaşın konstitusiya ilə nəzərdə tutulmuş hüquqlarını məhdudlaşdıran istintaq və digər prosessual hərəkətlərin həyata keçirilməsinə dair vəsatət və ərizələrə şamil edilir, baxılması və müvafiq icazənin verilməsini özündə ehtiva edir.

Məhkəmə nəzarətinin hüdudları məhkəmədə həll olunan problemlərin dairəsini müəyyənləşdirən konsepsiyadır. Qüvvədə olan cinayət-prosessual qanunvericilik məhkəmə nəzarətini həyata keçirən məhkəməyə cinayət təqibi və ya cinayət işi üzrə icraatın xitam edilməsi haqqında qərarlardan şikayətlərə baxmaq və həmin qərarı qanunsuz hesab edərək, ləğv etmək hüququ verir. Məhkəmə belə qərarı ləğv etdikdə konkret şəxs (şübhəli şəxs, təqsirləndirilən şəxs) barəsində cinayət təqibinin və ya konkret fakt barəsində cinayət işi üzrə icraatın davam etdirilməsi müvafiq hüquq-mühafizə orqanı üçün məcburidir.

CPM-in 109.1.6-cı maddəsinə uyğun olaraq, hakimin sonradan işə baxması hallarını istisna etmir, bunu potensial təhlükə saymır. Lakin xitam verilmə haqqında qərarın məhkəmə tərəfindən ləğv edilməsi məhkəmədə müəyyən qədər ittiham meylinin yarandığı barədə təəssürat yaradır. Faktiki olaraq, məhkəmə həmin qərarın qəbul edilməsi ilə konkret şəxsin cinayət təqibinə məruz qalmalı olması barədə qənaətini rəsmi şəkildə ifadə etmiş olur.

Cinayət işi və cinayət təqibinin xitam edilməsi üzərində prokuror nəzarəti və məhkəmə nəzarəti kimi iki prosessual nəzarətin olmasınınm məqsədəuyğunluğu məsələsi hər zaman aktual olaraq qalacaqdır. Məhkəməyədək icraatda məhkəmə nəzarəti institutunun mövcudluğunu əsas götürməklə prokuror nəzarətindən tam imtina etmək Azərbaycan Respublikasının təcrübəsi üçün hələ tezdir və məqsədəuyğun deyildir.

Nəticədə aparılmış təhlillər yekunlaşdırılır, irəli sürülmüş təklif və tövsiyələr sistemli şəkildə təqdim edilir.

Təcrübi işçilər arasında həyata keçirilmiş anonim rəy sorğusunun nəticələri və cinayət işinə (cinayət təqibinə) xitam verilməsi üzərində prokuror nəzarətinə dair statistik göstəricilər (2015-2023-cü illər) dissertasiya işinə əlavə edilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş elmi məqalələrində öz əksini tapmışdır:**

1. Cinayət işinə xitam verilməsinin anlayışı ilə bağlı nəzəri mülahizələr // Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev və Azərbaycanda hüquqi dövlət quruculuğu" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. 2 clddə, II cild. – BDU, – Bakı, – 3 iyun 2016-cı il, – s.168-170.
2. Cinayət işinə və cinayət təqibinə xitam verilməsinin sosial-hüquqi mahiyyəti və əhəmiyyəti / – Bakı: Qanun, – 2016, – № 12 (266), – s.130-137.
3. Cinayət təqibinə xitam verilməsi əsasları və təsnifatı / – Bakı: Qanun, – 2017, – № 1 (267), – s.97-102.
4. Azərbaycan Respublikasının cinayət prosesində cinayət təqibi institutunun mahiyyəti haqqında / – Bakı: Qanun, – 2018, – № 2 (280), – s.84-91 (həmmüəllif).
5. Cinayət məsuliyyətinə cəlb etmə müddətinin keçməsi ilə bağlı cinayət təqibinə (cinayət işinə) xitam verilməsinin xüsusiyyətləri / – Bakı: Qanun, – 2018, – № 4 (282), – s.75-82.
6. Cinayət təqibinin həyata keçirilməməsinə imkan verən hallarda cinayət təqibinin (cinayət işinin) xitam edilməsi / – Bakı: Qanun, – 2018, – № 9 (287), – s.68-74.
7. Məhkəməyədək icraatda cinayət təqibinə və cinayət işinə xitam verilməsi əsaslarının təsnifatı və onların hüquqi nəticələri / Bakı: Qanun, – 2018, – № 10 (288), – s.23-30.
8. Концепция уголовного преследования: по законодательству Азербайджанской Республики / – Москва: Евразийский юридический журнал. – 2018, – № 12, – s.332-333.
9. Cinayət işinə xitam verilməsi ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinin bəzi məsələləri / – Bakı: Polis Akademiyasının Elmi Xəbərləri. – 2023, – № 2 (38), – s.20-24.
10. Уголовное преследование в законодательстве стран Содружество Независимых Государств / Интернаука. Сборник статей конференции. – Москва, – 2023, – №11 (43) июнь, – s.120-124.

11. Участия потерпевшего в уголовном преследования: зарубежный опыт / LXXIII Международная научно-практическая конференция. Интернаука. Сборник статей конференции. – Москва, – 2023, – № 7 (73) июль, – с.102-105.

Dissertasiyanın müdafiəsi 25 04 2025-ci il tarixində saat 14:00 Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Milli Aviasiya Akademiyasının nəzdində fəaliyyət göstərən ED 2.45 saylı Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, Xəzər r/nu., Mərdəkan pr., 30, Az.-1045

Dissertasiya işi ilə Milli Aviasiya Akademiyasının Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Milli Aviasiya Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 19 03 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.03.2025

Kağızın formatı: A5

Həcm: 36834 işarə

Tiraj: 100